# FİKRƏT SADIQ

# GÖYDƏ NƏ VAR...



GƏNCLİK
BAKI-1978

# ŞERLƏR

## BƏS BU NƏDİR?

— Bəs bu nədir?
— Bu, quşdur.
— Niyə bura qonmuşdu?
— Dən yeyirdi.
— Dən nədir?
— Mən də
görə bilmədim hamısını dənlədi.

— Bəs bu nədir?
— Bu, daşdır.
— Necə gəlib
bura bəs?
— Kimsə daşıyıb daşı
Daş özü gələ bilməz.
— Kim daşıyıb görəsən?
— Daş gələndə yuxudan
Durmamışdım hələ mən.

— Bəs bu nədir?
— Ağacdır.
— Belə də ağac olar?—
Hanı bunun alması?
— Almasını yığıblar,—
Budaqlar qırılmasın.

— Bəs bu nədir?
— Bilmirəm.

Axı, mən də uşağam,
Gedib indi atamdan
Bunu soruşaçağam.

## GİLƏ

Qəşəng qızam—
        adım Gilə,
Qonaq getdim
        dayımgilə.
Yağış yağdı
        gilə-gilə.
Ayaqqabım
        batdı gilə.

## K Ö R P Ə

Vüqar hələ
Lap körpədir.
Nə bilsin ki,
Qardaş nədir.

İlqar evdə
Darıxır tək,
Deyir:—Qardaş.
Dur bir gəzək.
Vüqar durmur.

İlqar hərdən
Evcik qurur...
Deyir:—Qardaş,
Gəl, sən də qur.
Vüqar gəlmir.

İlqar səhər
Yeyir sıyıq,
Deyir:—Qardaş,
Ye bir qaşıq.
Vüqar yemir.

Vüqar hələ
Lap körpədir,
Nə bilsin ki,
Qardaş nədir ..

## ALMA HARDA BİTİR?

İki qardaş, bir bacı:
Faiq, Çingiz və Sona.
Mübahisə etdilər
Alma yeyəndən sonra.

Faiq dedi ki:—Alma
Ağacdan dərilibdir.
Çingiz dedi:—Anamın
Zənbilində gəlibdir.

Kiçikdir hələ Sona
Di gəl, onu inandır.
Qardaşlar nə dedisə
Sona dedi:—Yalandır!
Almanı mən həmişə
Süfrəmizdə görmüşəm.

## KÜSƏYƏN QIZ

Cəmilə çox şıltaqdı,
Cəmilə tərs uşaqdı.
Xörək paylanan zaman
Qışqırır ki:—Ay aman,
Bu, yağlıdır, yemirəm,
Çörək də istəmirəm.
Mənə az verin, lap az.
    Cəmilə, belə olmaz!
Bu gün də axşamüstü

Bir qaşıq xörək üstə
Cəmilə yenə küsdü.
Xörəyini dağıtdı,
Qaşığını da atdı,
Dedi:—Az verin, lap az!
Cəmilə, belə olmaz!
Ağıllı qızlar bilir:
İşdən qayıdan ana
Əlləri yana-yana
Necə xörək bişirir.
Cəmilə də bunları
Başa düşsəydi barı,
Xörəyini dağıtmaz,
Qaşığını da atmaz;
Paydan razı qalardı,
Ağıllı qız olardı...

## İYNƏ

— İynə əlimə batdı,
Barmağımı qanatdı.
Al bunu at, anacan,—
Deyib ağladı hicran.
Anası dedi:—Qızım,
Mənim körpəcə quzum,
Balaca iynə bir-bir
Hamını bəzəndirir.
Aygünün çəkməsini,
Güllünün tikməsini,

Gülşadın da donunu,
Dilşadın da donunu,
Mənim də paltarımı,
Sənin də paltarını
İynə tikib,balacan,
Kol incimə sən ondan.
İynənin qədrini bil,
İynəni atmaq olmaz.
İynə oyuncaq deyil.
Onu oynatmaq olmaz.
Axı, acığı tutar.
İynənin öz işi var.
Bircə il də böyü sən.
Özün öz əllərinlə
həmin bu iynə ilə
Qaragöz gəlininə
Bir qəşəng don tikərsən.

# S E V Ə R

## I

Qaragözlü Sevəri,
Şirinsözlü Sevəri
Bağçadan bir gün səhər,
Məktəbə gətirdilər.
Qaragözlü Sevərin,
Şirinsözlü Sevərin
Sevinçi aşdı-daşdı.
Cing-çiring...
Zəng çalındı...
Ah... nə qəşəng çalındı!
Sevər sinifə qaçdı.
Müəllim bir-bir, hamıdan
Soruşdu:—Adın nədir?
— Təranə, Nadir, Fidan,
Elçin, Fnrəngiz, Qədir,
Fərhad, Faiq, Münəvvər,
Araz, Sədaqət, Sevər ..
Müəllimin də xoşuna
Kəldi Sevərin adı.
Tez yaxınlaşıb ona
Saçını tumarladı.
Cink-ciring...
Zəng çalındı.
Sonra bir də zəng oldu.
Sevər neyləsin indi;
Sevər yaman yoruldu.
Yuxusu gəldi birdən,
Dedi:—hanı çarpayım

Gedim bir az yuxlayım,
Yorulmuşam axı, mən.
Uşaqlar gülüşdülər,
O ki var gülüşdülər.

II

Sevər evə qayıtdı,
Əvvəl doyunca yedi.
Sonra doyunca yatdı.
Yuxudan durub dedi:
— Anacan, ay anacan,
Nə olar ki, sabahdan
Məni bağçaya apar.
Belə də məktəb olar?
— Nə qəndi, nə çayı var,
Nə də ki çarpayı var...
Anası dedi:—Qızım,
Mənim ümidim, arzum,
Yazı yazmaq istəyən
Məktəbə pis deyərmi?
Həkim olmaq istəyən
Məktəbi pisləyərmi?
Məktəbdə yatmaq olmaz,
Sinifdə yemək olmaz.
Ayıbdır, bu sözləri,
Müəllimə demək olmaz!
Bağçanın öz yeri var,
Məktəbin öz yeri var.
Mənim ağıllı qızım,
Məktəbdəcə oxuyar,
Gəlib evdəcə yatar!

III

Sevər yaman utandı,
Sevər səhvini qandı.
Sabah hamıdan əvvəl
Durub məktəbə gəldi.
Dünən dediklərinə
Bu gün özü də güldü...

## BALACA İŞIQÇI

Fərhad işıqçı olub,
Fərhad yaman yorulub...
Dirəklərin yerini
Ölçür-biçir min kərə,
Yulğun çubuqlarını
Basdırır bir-bir yerə.
Məftili—qırmızı sap...
Addımbaşı qırılır.
İki xətti çəkincə
Gün batır axşam olur.

Həyətin bir küncündə
Sədaqət evcik qurub;
«İşığı» yoxdu hələ
Qaranlıqda oturub.
Bu gün təzə «otaq»lar
Çıraqban olsun gərək;
Axşam Sədaqətgilə
Çoxlu qonaq gələcək.

Fərhad yaman tələsir,
Barmağını sap kəsir:

«Qoy kəssin də, nə olar,
Təki yansın işıqlar!»

## TAYQADA NEFT

Aç xəritəni,
Yaxşıca bax ha!
Gör hardan-hara
Uzanır tayqa.
Bu yan Uraldır,
O yan tundra...
Qışda bu yerlər
Bürünür qara.
Kəsir yolları,
Yayda bataqlıq.
Bir addım atmaq—
Əsil qoçaqlıq!
Şəhərləri az,
Kəndləri uzaq...
Yeganə yolu
Çaylardır ancaq.
Çayları dərin,
Çayları geniş—
Çaylar cənubdan
Daşıyır günəş.
Gör nə məğrurdur,
Sidr ağacı—
Sibir gözəli,
Tayqanın tacı.
Qışda bu yerin

Yel atı—maral.
Maralsız gəzən
Yoldaca qalar.
Əgər qış çağı
Tayqanı gəzsən—
Maral qoşulmuş
Xizəklə gəz sən.
Samur görərsən,
Görərsən dələ,
Bəlkə ayı da
Rast gəldi hələ.
Qarşına çıxsa
Piyada ovçu—
Bil ki, bir azca
Gopçudur, gopçu.
Burda ovçu da,
Uzağa getməz;
Gərək döşünə
Döyməsin bir kəs.
Burda qışlayan
Peşman olarmış.
Quş quşluğuynan
Qanad salarmış.
Amma bir səhər
Gəldi neftçilər¯
Rus, ukraynalı,
Belorus, çuvaş,
Azərbaycanlı,
Erməni, tatar...
Hamısı qardaş,

Hamısı yoldaş!
Gəldi Sibirə
Onlarla birgə
Bizim ellimiz
Fərman əmi də.
Şaxtada, qarda,
Bataqlıqlarda.
Gündə bir ağac
Yol getdi onlar.
Tayqanı gəzib
Neft aradılar.
Atalar deyib
«Axtaran tapar!»
Çaylarda şırım
Açanda bahar,
Qədim gilidə
Tapıldı açar.
Kim ki qorxmadı
Keçdi tayqadan,
Birinci oldu,
Çıxartdı ad-san.
Fərman əmi də
Qəhrəman oldu.
Hamıdan əvvəl
İnanırdı o,
Tayqada neft var.
İlkin buruqdan
Qalxan fəvvarə
Qara neftiylə
Yazdı göylərə:

«Tayqada neft var
«Tayqada neft var
Doğruya çıxdı
Bütün gümanlar.
Axışdı bura
Şəhər quranlar.
Axdı çaylardan 1
Nəhəng kranlar.
Gəldi tayqaya
Yeni limanlar.
Durdu yan-yana
Yeni şəhərlər.
İnsan ayağı
Dəyməyən yerlər
İndi olubdur
Hünər meydanı.
Fəhlə mərdliyi
Burda sınanır...
Gəldi meşəyə
Buruq meşəsi.
Sındı tayqanın
Sükut şüşəsi.
Addım səsindən
Tayqa oyandı.
Soyuq diyarda
Məşəllər yandı.

## A Y

Ay ana, Aya bir bax!
Keşlədə idi bayaq.
Avtobusa minmədi,
Metroda görünmədi,
Biz gəldik, o da gəldi;
Amma piyada gəldi,
Özü də bizdən qabaq.
Ay ana, Aya bir bax!
Fırlanıram fırlanır,
Dayanıram dayanır,
Gedirəm,gedir o da,
Yaman dəcəldir o da.
Yaxın düşmür oynayaq.
Ay ana, ona bir bax!
Küçəmizə gedir Ay,
Yoxsa bizə gedir Ay?!
Aya bax, irəlidə.
Qalxdı pillələri də.
Astanamıza çatdı,
Birdən nə oldu batdı?
Yoxa çıxdı Ay, ana,
Axı, çıxdı Ay, ana?!
Hara qaçdı bilmədim.
Niyə bizə gəlmədi?

## S A Y

Saya bilmir
Hələ Mələk
Bir kəlməni neçə dəfə
Sadalayıb—
Sayırsa o,
O qədər də
Sayır demək.
«Bu, bir çiçək»,
«Bu, bir çiçək»,
«Çiçək-çiçək»—
Yəni oldu iki çiçək.
«Bu, bir bəbə»,
«Bu, bir bəbə»,
«Bu da biri»...
«Bəbə, bəbə, bəbə» deyə
Mələk saydı bəbələri.

Naxır keçir...
Di say hörək!
«İnək, inək, inək, inək».
«Qaşqa inək»,
«Sarı inək»,
«Ala inək»,
Saya bilmir
daha Mələk.
Tez çağırır anasını
Ana, tez həl,
say, öyrənək

## DƏCƏL KÜLƏK

— Açım qapını, ana!
Yaman tövşüyür külək,
Bəlkə yorulub yazıq,
Bəlkə üşüyür külək?

— Açım qapını, ana!
Bəlkə qorxaqdır külək
Gör necə də ağlayır
Sanki uşaqdır külək!

Qapını tıqqıldadır
Külək burda yalandan.
Hamımızı aldadıb
Güllə kimi o yandan
Pəncərəni sındırıb
Evə təpir özünü
Uşağın dodağından
Qapır «ana» sözünü.

1

## GÖYDƏ NƏ VAR?

— Göydə nə var?
— Buludlar;
Buludlarda yağış, qar.
Buludlar ağır, uca,
Buludların bolluca
Yağışı, qarı bizim.
— Yazda nübarı bizim,

— Payızda barı bizim.
— Göydəndir qış da, yay da!
— Göydədir Gün də, Ay da!
— Ayı deyə bilmərəm,
Göydə süzər təyyarə,
Uçub gedor hər yerə.
— Göydə köçəri quşlar
Uçarlar qatar-qatar,
Afrikaya köçərlər.
— Göyə hərdən daş atar,
Selbə atar dəçəllər.
— Niyə susub durmusan,
Sən də qoşul oyuna".
— Hardan bilim ki, nə var,
Bizim Yerdən o yana.
— İndi görək kim deyər,
Niyə düşmür Göy Yerə?
— Göy havadır, sonsuzdur,
— Yerə düşməz onsuz da,
Gecə özüm görmüşəm,
Çoxlu sarı mismarla
Göy göyə mismarlanıb.
— Bu sözü mən demişəm,
Elə dünən demişəm.
Gör necə də inanıb...
O gördüyün mismarlar
Mismar deyil,
ulduzdur.

— Sən məni aldatmısan
Aldadıb ağlatmısan;
Çıx oyundan, uduzdun.
— Göy anadır, biz uşaq!
— Göy uzaqdır, lap uzaq!
— Göy dənizdir!
— Göy düzdür!
— Gömgöydür göy çəmən də!
— Ay-hay, söz tapdın sən də!
— Elə Yer də köydədir.
— İndi bildin, Göy nədir?
— Göy dərindir,
lap dərin.
— Göyə kim uçub ilkin
— Kim tapar, kim?
— Mən deyim?
— Yox, mən deyim.
— Mən!
— Mən!
— Bizim Yuri Qaqarin!
— Afərin, min afərin!

## SÖZÜN YERİ

«Qarı nənə»yə
«Qoca xala»
Demə, bala.
Qarı qarıdır,
Qoca qocadır.
Sözlər qohumdur—
Məna haçadır.
Susuz dərəyə
Yaşıl tala
Demə, bala.
Dərə dərədir,
Tala taladır.
Sözü yerində
Desən bal dadır.
Yersiz deyilsə,
Söz səndən küsər.
Məna axsayar,
Yarımçıq olar.
Söz tikan olar,
Söz qılçıq olar.
Deşər qulağı,
Dili dalayar.

## DÖRD SÖZ

*«Yaz»*

Yaxşı bilir uşaqlar
Qışı pozan yaz olur.
Yaz gələndə bozarmış
Dağlar yaşıl yazılır,
Bağlar yaşıl yazılır,
Çöllər yaşıl yazılır,
Hər yer yaşıl yazılır
Yaz ki yaşıl qələmlə
Dünyanı dəyişirmiş;
Bəlkə elə «yaz» sözü
«Yazmaq» sözündən imiş.

**«Yay»**

Günəşdən Yerə qədər
Uzanan qızıl tellər,
Köklənəndə tar kimi,
Yay bürüyür aləmi.
Göy gərilir yay təki
Yerə göydən od yaqır.
Küləyin nəfəsi tənk...
Çaylar susub lal axır.

Çatlayır çadar-çadar
Tarım çəkilən torpaq.
Dəmir belə uzanır,
«Yay»ın kücünə bir bax!
Qaxa dönər ağaclar
Yarpaqlara dən düşər.

«Yay» istidən təngiyib
Payızda kökdən düşər.

**«Payız»**

Payızın əvvəlində
eşidilən «pay» sözü.
Yaxşı tanıdır bizə
Bar gətirən payızı.
Payız—paydır, nübardır
Payız—bizim payımız.
Payız—heyva ətirli...
Payız—üzüm payımız.
Payızdır fəsillərin
Ən mərdi, ən comərdi.
Yaz nə yazıb getdisə
Barını payız dərdi.

**«Qış»**

Bəlkə əvvəl «qıc» olub
Sonra dilə yatıb «qış».
Yaz, payız nə bitirsə
Qış geriyə alıbmış.
Qışda susur ağaclar,
Qışda torpaq «qıc» olur.
Qışda bağlar.üşüyür,
Qışda dağlar qocalır.
Tutulur yollar, izlər
Çaylarda su yerimir.
Şaxta kilid asandan
Bulaqlar dinə bilmir.
Qışın da ömrü azdır

Yazı görüb qaçacaq.
«Qıc» olmuş budaqları
Yaz yenə oyadacaq.

## İKİ QORXAQ

Əhməd dovşana baxır,
Dovşan Əhmədə baxır.
Əhməd dovşandan qorxur,
Dovşan Əhməddən qorxur.

## ÇANAQLI BAĞA İLƏ QURBAĞA

Bir çanaqlı
Çağa bağa
Girdi bağa,
Oynamağa.
Bir qurbağa
Onu görüb
Qoydu lağa:
— Buna bax, a!
Buna bax, a!
Əynindəki
Qına bax, a!
Yaman qorxdu,
Çağa bağa.
Elə qaldı
Baxa-baxa.
Sonra dedi:
— Son də bağa,

Mən də bağa.
Təkcə «qur»un
Artıqdı, ha!
Çox döşünə
Döymə, qağa!
Quruldama
Lovğa-lovğa.

## AĞACDƏYLƏN

Baxır sağa,
Baxır sola—
Baxır yola;
Nə gedən var,
Nə də gələn.
Tıq-tıq, Tıq-tıq,
Taq-taq, taq-taq.
Bir böcəyin
Qapısını
Döyəcləyir
Ağacdələn.

Axmaq böcək
Tez, sevincək
Üz-gözünə
Verir bəzək.
Baxır açar
Yerindən:—Ah,
Görən kimdir,
Hirsli qonaq!

Tıq-tıq, tıq-tıq,
Taq-taq, taq-taq,
Yuva bomboş,
Qapı açıq.
Düşüb yerə
Güzgü-daraq.

Tıq-tıq, tıq-tıq,
Taq-taq, taq-taq.
Tıqqıldadır
İndi başqa
Bir qapını
Ağacdələn.

Qonşu böcək
Qonşusu tək
Bilmir hələ—
Kimdir gələn...

## D Ə L Ə

Ağacdan-ağaca
Hoppanır,
Yellənir...
Gecə də,
Gündüz də
Əylənir.
Budaqlar
  Yelləncək,
Yarpaqlar

Yelləncək;
Oynayır,
Şənlənir.

Qış kəsib qapını,
Qorxutmur qar onu.
Yığdığı qozalar
Üç qışa bəs edər.

Meşədə acından
Ulayır canavar,
Dələyə nə var ki,
Arxayın-arxayın
Yellənir,
Əylənir,
Şənlənir...

Canlı bir təkərə
Bənzəyir.
Yorulmur, elə hey
Budaqdan-budağa
Ağacdan-aqaca
Gillənir.

## BALA KİRPİ

Bir zamanlar,
Yer üzündə,
Bizim Şirvan
Küdrüsündə—
Bir ərköyün
Kirpi vardı,

Min cür oyun
Çıxarardı.
Bir gün
Soraq-soraqilən
Gəlmişdi
Kür qırağına
Bala kirpi;
Gördü körpü
Gözə dəymir,
Dedi:—Görüm
Nədir bu Kür.
Niyə dəli,
Niyə kürdür?»
O taydaydı
Hələ bərə,
Elə-belə
Düşdü Kürə.
Dəli Kürün
Bərk acığı.
Tutdu ona.
İstədi ki,
Çəkib sala—
Burulğana.
«Batıram ha!
Ay haray, a!»
Xəbər çatdı
Balıqlara.
«Vay, Kür hara,
Kirpi hara!»
Harayına

Tez çatdılar.
Boz kirpini
Burulğandan
Çıxartdılar.
Yuyulmuşdu
Tozu,  kiri
Yuyulmuşdu
Bala kirpi.
Ufuldadı,
İnildədi.
Balıqlara
Belə dedi:
Yoldan qaçın,
Üzəcəyəm.
Mən batırdım
Yoxsa, bəyəm?!»
Gülmək tutdu
Balıqları.
«Boğulmuşdun
Dinmə. barı,
Bala kirpi!
Dinmə, kiri,
Qayıt geri,
Gözlə bərə,
Gəlsin bəri.
Lap arxayın,
Adla çayı!»

## ŞƏKİLLİ KİTABXANA

***Korney İvanoviç Çukovskinin***

***xatirəsinə***

Uziz balalar!
Çox gəzən
Çox şey bilər:
Eşidin təzə xəbər!

Peredelkino
Kəndində
Qəribə bir bina var,
Dünyada bircə dənə
Belə kitabxana var.

Həm özü qəşəng,
Həm kitabları...
Divarları
Rəngbərəng—
Mavi, yaşıl, ağ...
Divara çıxmış
Filə bax!
Qışda qızılgülə bax!
Damı
Dama-dama,
Hər daması
Bir rəngdə.
Divarlara çəkilib
Maral da
Dovşan da,
Tülkü də,

Pələng də.
Hamısı da
Yanaşı,
Qar yağır,
Şaxta kəsir.
Kitabxana
Yamyaşıl.
Doktor Aybolit
Gəzir divarda.
Yelkənli gəmi
Üzür divarda.
Afrika burda,
Nil burdan axır,
Qapı dalından
Bekemot baxır.
Bəzəkli rəflər,
Şəkilli, qəşəng
Kitabla dolu.
Burda qəribə
İmtahan olur;
Kim iki kəlmə
Ya iki misra,
Ya bütöv şer
Bilməsə əzbər
Gülür şəkillər.
Kim «Moydadır»ı
Deyəndə çaşsa,
Ya höccələsə,
Unutsa əkər,
Külür şəkillər.

«İki» alanı
Dərsdən qalanı.
Hələ uzaqdan
Tanıyır dələ...
Ağacdan-ağaça
Tullana-tullana
O saat qaçıb
Xəbər verir
Sağsağana.
Sağsağan bildi—
Hamı bildi,
Hər yan bildi.
Hünəri var
Tənbəlin
Bu qaydanı
Bilə-bilə
Bura gələ...
Əziz balalar,
Görüb heyran
Olmuşam
Mat qalmışam
İnanın, mənə...
Peredelkino
Kəndində
Qəribə bir bina var.
Şəkilli kitab
Çoxdur dünyada;
Amma dünyada
Yalnız bircə dənə
Şəkilli Kitabxana var.

Bu binanı
Bütün kitablarıynan
Uşaqların
Böyük dostu—
Şair Korney Çukovski
Bağışlayıb uşaqlara.
Kimdir orda .
İnanmayan
Dodağını büzüb deyən
«Soyuq Şimal kəndihara
Fil hara?».

## POEMA VƏ ƏFSANƏ

## CİRTDAN HARA GETMİŞDİ?

***Babamın bir donu var,***
***qatlamaq olmaz***
***İçi dolu əşrəfidir,***
***sanamaq olmaz.***

(T a p m a c a)

I

Cəngi meşəsi...
Xəzəlli cığır.
Bir qoçaq uşaq
Yamaca çıxır.
Çiynində ağır
Odun şələsi,
Qara gözündə
Günün şöləsi,
Odun şələsi
Özündən ağır.
Yaman tələsir,
Yaman darıxır.
Axı, nənəsi
Çörək yapacaq
Təndirə bu küp.
Odun gərəkdnr
Yağlı kökələr
Bişirmək üçün.

Görəsən necə
Olub ki, Cırtdan
Qorxmayıb qurddan,
Qorxmayıb itdən,
Qorxmayıb divdən,
Tək çıxıb evdən.

II

Yolayrıcıdır...
Yollar oxşayır
Biri-birinə.
Yollar çaşdırır
Cırtdanı yenə.
«Bizim yol budur,
Yox, bəlkə budur?
Bəlkə də budur!»
Gözünü yumub
Sağa buruldu.
Yol eniş-yoxuş,
Endi, yoruldu.
Qalxdı, yoruldu.
Gərək ki, kəndə
Çataydı çoxdan
İndi bildi ki,
Azıbdır Cırtdan.

III

Kəndir kəsibdir,
Keyiyib əli.
Bir hovur durur,
Bir addım gəlir.

Göründü birdən
Pirqulu dağı.
O, birnəfəsə,
Çıxdı bu dağı,
Baxdı aşağı.

IV

Baxır inanmır,
Gözünə Cırtdan;
Alçalıq idi
Bura bir zaman.
İndi gördüyü
Bu evlər nədir?
Bu şəhər nədir?
Yoxsa, bu yerlər
Div məskənidir?
Elə oradaca
Şələni atdı.
Səssiz-səmirsiz
Evlərə çatdı.
Gəzdi o yanı,
Gəzdi bu yanı.
«Burda div hanı?»
Demə, bu şəhər
Rəsədxanadı.
Uşaqlar onu
Hələ uzaqdan
Görüb tanıdı.
Yüyürüb gəldi,
Elçinlə Eldar,

Gəldi Ayaz da,
Gəldi Niyaz da...
Dedi:—Susuzam
Su gətirdilər.
Dedi:—Acmışam,
Qoğal verdilər.
Küçənin o başında
Göründü Rəhim əmi.
Bağçadan gətirirdi
Nəvəsi Rəhiməni.
Uşaqlar qaçıb onu
Tez dövrəyə aldılar
Dedilər: «Rəhim əmi,
Əziz qonağımız var.
Sehrli boruları
Göstərin də,
Nə olar?»
Səsli-küylü dəstəyə
Qoşuldu Rəhim əmi.
Cırtdan totuq əlindən
Yapışdı Rəhimənin.
Az getdilər,
Üz getdilər.
Bir küçəylə
Düz getdilər.
Bir ağ evə çatdılar,
Tez açıldı qapılar.
Rəhim əmi ağappaq
Bir düyməyə toxundu..
Evin damı yığıldı,

Evin damı yox oldu.
Tuşlandı Göyə
Sehrli boru.
Cırtdan soruşdu:
—Bu nədir belə?
Yamanca qorxdum.
Yoxsa,topdu bu?!
Uşaqlar dedi: —
Teleskopdu bu.
Elə bax, budur,
Sehrli boru.
Qonaq birinci baxdı.
Dedi:—Günəşə bax, ha!
Həm günəşə oxşayır,
Həm də yağlı qoğala.
—Qoğala oxşasa da,
O, günəşdir, ay bala.
Sizə demişdim o gün,
İndi Cırtdan da bilsin.
Günəş doğma, mehriban
Bir anaya oxşayır
Yaşadıqımız Yeri
Əzizləyir, oxşayır.
Yer fırlanır, demişdim,
Fırlanmır boş-boşuna,
Fırlanır gecə-gündüz
Anasının başına.
Anasını görəndə
Üzü ilk bahar olur.
Anasını görməsə

Üzü boran, qar olur!
Cırtdan indi bildi ki,
Yerin də qardaşı var.
Düz doqquz qardaşdılar,
Yer—ortancıl qardaşdır.
Yer hamısından başdır:
Çünki Yerdə insan var,
Çünki Yerdə Cırtdan var

Yerdə yaşamaq üçün
Hava da var, su da var.
Yerdə uşaqlar üçün
Kökə də, yuxu da var.
Yaxınlaşıb, borudan,
Bir-bir baxdı uşaqlar.
Axıra qaldı Eldar.
—Ay aman, gözə bir bax!
Günəşin dəg var?
—Yox a bala, göz deyil.
Bəlkə gözə oxşayan
Günəşin ləkəsidir.
Bəlkə sürünüb keçən
Buludun kölgəsidir?
Haray qopardı Eldar:
—Bir cüt qapqara gözdür
Yanır uzaqda par-par.
Uşaqlar bir də baxdı,
Rəhim əmi də baxdı:
—Eldar doğru deyirmiş...
Demə o qara gözlər
Çırtdanın gözləriymiş...

Aşağı baxan odur
Borunun o başından
Onu heç kəs görməyib
Ora dırmaşan zaman.
Uşaqlar gülüşdülər.
O ki var gülüşdülər!
Ayaz dedi:—a Cırtdan,
Ordan heç nə görünməz,
Nahaq yerə baxırsan.
—Hey, elə bilməyin ki,
Nahaq yerə baxıram,—
Siz köyə baxırsınız
Mənsə Yerə baxıram.

V

Cırtdan unutmuş idi
Nənəsini az qala.
Gördü ki, qaş qaralır,
Töküldü qaşqabağı.
Dedi nə olar, olar.
Dönüb düzəldi yola.
Ayaz dedi:—Getmə, qal.
Niyaz dedi:—Getmə, qal.
Elçinlə Eldar
Getmə.—dedilər,—
Meşədə qurd var.
Rəhimə şirin-şirin
Dedi:—Detmə, a Ditdan.
Rəhim əmi də dedi:
—;Getmə, bala, azarsan

—Divlərdən qorxmadım mən
Qurd nədir ondan qorxum?
Bircə şeydən qorxuram—
Qorxuram qaçar yuxum.
—Yuxun niyə qaçır ki?
—Axı, hər axşam mənə
Nağıl deyərdə nənəm.
—Eh, nağıla nə var ki,
Piri babaya
Deyərik sənə
Nağıl danışar.
—Qalıram onda
Rəhiməgildə
Qonaqdı Cırtdan.
Ayrıla bilmir
Uşaqlar ondan.
Hamı burdadır.
—Bəs Piri baba
Gəlməyib hələ?
— Gəl, burda otur,
— Bu düyməni bur,
İndicə gələr.
—Bu nədir belə?
Ev kinosudur—
—Televizordur.
Mavi güzgüdə
Göründü bir qız
Dedi:—İndi də
Piri babaya
Qulaq asın siz!

## PİRİ BABANIN NAĞILI

«Biri vardı,
Biri yoxdu:
Yer üzündə
Oyuncaqlı,
Oyuncaqsız
Uşaq çoxdu.
Amma yumaq
Topu olan
Bir nəfərdi,
Həmin oğlan
Gecə-gündüz
Öyünərdi:
Yeddirəngli,
Yeddi dilim,
Yeddi zolaq,
Yumru kilim,
Topuma bax!
Nənəm bunu
Toxuyubdur;
Babamdan
Yadigar qalan
Heybəmizin
Saplarından.
Həmin heybə,
Babama da
Qalmış idi
Babasından.

Ondan ulu
Babama da,
Ondan ulu
Babasından...»
Ay uşaqlar,
Siz də baxın,
Yaxşı-yaxşı.
Möcüzədnr
Hər naxışı.
Bu topun
Yeddi rəngi var;

Hamısı
Ona yaraşır.
Bu, yaşılı—
Baxırsan
Gözün qamaşır,
Bu, qəhvəyi—
Dolanır
Göyə qarışır.
Bu, qırmızı—
Günəş tək yanır,
Qızılı.
Bu, qarası—
Bu yana
Gecə yazılıb.

Bu, sarısı—
Gecəyə
Ulduz düzülüb.
Bu da ağı—
İşıq yolu,
Nur zolağı.

Bir gün,
Meydanda
Top oynadanda
Həmin oğlan:
Bu gup-gupdan
Oyandı,
Qayada
Daldalanmış
Külək.
Yuxudan
Kal oyanmış
Ayı tək
Hirslə
Qapıb,
Yumaq topu,
Yuvarlatdı,
Dərəyə.
Çırpdı ora—
Çırpdı bura,
Oynatdı,
Fırlatdı,
Atdı
Göyə.
Bələdi,

Qapqara
Lap qapqara
Buludlara.
Soyumadı
Yenə
Hirsi—
«Hamı bilsin!
Hamı bilsin!
Hamı bilsin!
Küləyə
Top atmaq olmaz!
Küləyi
Oyatmaq olmaz!»
Küləyi
Haqladı uşaq
«Dəli külək,—
Ver topumu!»
Külək
Vıy-vıy vıyıldadı,
Dərəyə
Tullandı uşaq—
«Dərin dərə,
Ver topumu!»
Dərə u-u
Uğuldadı.
Buluda
Yalvardı uşaq—
«Qara bulud,
Ver topumu!»

Bulud gur-gur

Guruldadı.

Bu nədir belə?
Səmadan yerə
Nur seli axdı:
Günəş də çıxdı,
Yağış da yağdı.
Buluddan
Asıldı
Yeddi sap.
Buluddan
Torpağa
Endi top.
Ay aman!
Qoymayın,
Çözülür
Topumun Sapları!
Bu mavi,
Bu yaşıl,
Bu sarı,
Bu da ağ...
Yüyürdü...
Gördü bu
Nə sapdır,
Nə topdur.
Demə Göyqurşağı
Aldadıb
Uşağı.

Ağladı

Qəhərdən.
Kövrəldi
Yer-yerdən
Qayalar,
Çiçəklər;
Susdu
Böcəklər.
Durdu
Kəpənəklər,
Ah çəkdi dərə,
Süründü
Duman.
Bir atlı
Göründü,
Bu an;
Belində
Oxdan,
Əlində
Kaman.
—Oğlan,
Niyə ağlayırsan?
—Əmi,
Niyə ağlamayım?
Yeddirəngli,
Yeddi zolaq,
Yeddi dilim,
Yumru kilim,
Topum vardı...
Külək atdı,
Dərəyə.

Dərədən
Göyə,
Buluda,
Bulud alıb apardı,
Göyqurşağını
Görüb ağladım.
Atlı bahadır
Endi atından.
Açdı xurcunu,
Uçan xalçanı
Çıxartdı ordan.
— Burdaca dayan,
Atımı saxla.
Nə belə zarı,
Nə də ki, ağla!
Oğlan gözünü
Yumub açınca,
Qalxdı ucaya
Yox oldu xalça.
Amma, qayıtdı...
Çox tez qayıtdı.
Bu qoçaq atlı
Endi xalçadan
Məyus dayandı.
—Neyləyim, bala!
Uçan xalçalar
Ucsuz-bucaqsız
Mavi göylərin
Yeddi qatından
Yalnız və yalnız,

Üçüncüsünə
Qalxır güc-bəla.
Neyləyim, bala!
Az qalmışdı
Topa çatam;
Sıçrayıb keçdi
Dördüncü qata...
Atlı birdən
Çıxdı yoxa.
Oğlan qaldı
Baxa-baxa
Yenə yola
Düzəldi o,
İynə yarım
Yol gəldi o.
Az getdi, Üz getdi...
Dərə, təpə düz getdi...
Getdi,
Ümidsiz getdi,
Getdi,
Könülsüz getdi,
Amma getdi:
«Bəlkə birdən,
Birdən qarışar
Topum yağışa
Nə yaxşı olar!
Bəlkə birdən,
Birdən yorular,
Əlindən salar

Topumu bulud?
Nə yaxşı olar!»
Lap uzaqda...
Qarşı dağdı,
Çökək yerdə.
Bir rəngbərəng
Yekə topa
Gördü birdən.
Qaçdı uşaq,
Qaçdı uşaq,
Qaçdı uşaq.
İşə bir bax,
Bu çəmənmiş.
Bu görünən
Çiçəklərmiş—
Topa-topa;
Sarı topa,
Yaşıl topa...
Bu göy topa,
Bu ağ topa,
Lap uzaqdan
Oxşayarmış
Yumaq topa.
Yenə də bir
Atlı gəldi;
Kəmərində
Misri qılınc,
Çiynində Yapıncı,
Əlində kəmənd: —
Oğlan, Niyə ağlayırsan!

— Əmi,
Niyə ağlamayım?
Yeddirəngli,
Yeddi zolaq,
Yeddi dilim,
Yumru kilim,
Topum vardı,
Külək qapıb
Apardı.
Topa-topa
Çiçəkləri,
Topuma
Oxşatdım,
Ağladım.
— Kol bu atı
Saxla,
Görək
Başımıza
Nə gələcək.
Heybəsindən
İki lələk
Çıxartdı o,
Tutuşdurdu
Bir-birinə.
Zümrüd quşu
Hazır oldu.
Ucaldılar.
Yox oldular.
«Aha budur...
Qayıtdılar,

Nə ağır enir
Torpağa bunlar?
Zümrüd quşu da
Yaman yorulub.
Qoçaq atlı da
Yaman yorulub.
Görən nə olub?»
— Neyləyim, oğul!
Zümrüd quşları
Beşinci qata
Qalxırmış, demə,
Azca qalmışdı
Bəzəkli topun
Keçə əlimə;
Amma keçmədi.
Sözünü deyib,
Yox oldu atlı,
Durduğu yerdə.
«Bu nə işdir?» —
Deyə-deyə.
Dağdan endi
Düzənliyə.
Ciblərinin
Lap dibindən
O qovurğa
Tapdı,
Dəndən
Qovurğadan
Yeyə-yeyə,
Gəlib çıxdı

Düzənliyə.
Nağıl dili
Yüyrək olur.
Nağılda
Yol gedən adam
Yorulmayır.
Nağıl deyən
Yorulur.
«...Gəlib çatdı
Bir küdrüyə.
Baxdı yerə,
Baxdı göyə;
Ağ,
Qırmızı,
Yaşıl,
Sarı,
Yanıb-sönən.
Qalxıb-enən
İşıqları
Gördü oğlan.
—Bəlkə mənim
Topumdu bu?
Qaçdı,
Qaçdı,
Qaçdı,
Durdu,
Bu doğrudan
Çıraqlarmış!
Görmədiyi
Yerlər varmış,

Bilmədiyi
Sirlər varmış.

İki dəfə
Qəhərlənib
Ağlamışdı...
İndi baxıb
Mat qalmışdı
Gördüyünə.
Gördü yenə
Qarşısında
Bir əmi var.
— Oğlan, kimsən?
Hardan hara
Səfərin var?
Oğlan,
Başdan
Başladı lap
—Məni bura
Gətirib top—
Yeddirəngli.
Yeddi zolaq,
Yeddi dilim,
Yumru kilim,
Yumaq topum,
Uçan xalça...
Zümrüd quşu...
İki əmi....
Nələr-nələr
Kəlmələri
Bir nəfəsə

Muncuq kimi
Düzdü sapa
Sonra dedi:—
Ağ,
Qırmızı,
Yaşıl,
Sarı...
Çıraqları
Bənzədibmiş
Yumaq topa.
Sonra dedi:
—Bu işıqlı
Oxabənzər
Dəmir evlər
Nədir əmi?
—Uçan gəmi!—
—Sən kimsən bəs?
—Göyə uçan
—Əgər göyə uçansansa.
Hanı xalçan.
Bahadırsan,
Bəs qılıncın
Hanı sənin?
Bəs yapıncın
Hanı sənin?
Hanı atın,
Hanı heybən?
Sonra dedi:—
—Yerə enən
O quş nədir?

—Təyyarədir
— Dəmir quşdur,
Yorulmuşdu.
Yerə endi,
Nəfəsini
Dərsin bir az.
—Əmi, məni
Uşaq bilib
Nağıl Demə,
Dəmir uçmaz!
Sonra dedi:
—Bunlar nədir?
Düzülüblər
Cərgə-cərgə,
Əbrişim tək.
—Raketlərdir...
—Raket nədir?
—Birbaş yerdən
Aya gedir!
Uşaq dedi:
—Nağıldan
Gələn mənəm,
Nağıl deyirsən
Mənə.
Bunlar
Aya gedirsə,
Topumu
Gətirsənə!
Göyəuçan
Başdan

Geyindi,
Ayaqdan
Qıfıllandı.
Ayaqdan
Geyindi
Başdan qıfıllandı.
Sonra dəmir
Pilləkanla
Addım-addım,
Qalxdı gəmiyə.
«Uğurlu yol»,
Pıçıldadı
Oğlan Əmiyə.
O da dönüb,
Son pillədə
Baxdı aşağı.
Gördü uşağı.
Əl elədi.
Sonra
Gəminin altda
Ocaq çatıldı—
Elə bil.
Alov dilləri
Yay tək dartıldı—
Elə bil.
Göyə yepyekə
Nizə atıldı—
Elə bil.
Hələ tüstüylə
Doluydu meydan,

Hələ heyrətdən
Donuqdu oğlan,
Gəmi qayıtdı.
Göyəuçanın
Mehriban səsi
Onu ayıltdı.
—Yeddirəngli,
Yeddi zolaq,
Yeddi dilim,
Yumru kilim
Top
Kimindir?
– Mənim,
– Mənim,
Mənimdir!—
Uşaq əmini
Basdı bağrına.
Bilmədi ancaq
Nə desin ona.
Sevindiyindən
Dili tutuldu.
Sevindiyindən
Gözləri doldu.
—Yeddinci qata
Qalxıbmış demə,
Al, yaxşı saxla
Bir də itirmə!
Uzaqda qaldı
Raket meydanı.
Çökdü hər yana

Nağıl dumanı.
Tanış dumanlıq.
Tanış cığıra
Çəkdi oğlanı.
Aşdı illəri,
Aşdı günləri,
Aşdı dağları,
Keçdi düzləri,
Bayaq gəldiyi
Dolanbac yolla
Qayıtdı geri.
Topunu bərk-bərk
Sıxıb köksünə.
Öz nağılına
Qayıtdı yenə.

Üç alma düşdü göydən,
Birini tutdum göydə
Yerdə qaldı ikisi,
Onların da irisi
Nağılçıya çatacaq.
Tək biri qaldı ancaq
Gəlin onu da verək,
Göyəuçan əmiyə.
Topu gətirməsəydi,
Onda üç gün, üç gecə,
Nağıl deyəydim gərək.

VII

Piri babanın
Nağılı bitdi.
Cırtdan sevindi.
«-İndi rahatca
Yataram,—dedi.
Şirin yuxudan
Oyandı Cırtdan,
Gördü haçandı
Sökülübdü dan.
Durdu geyindi;
Rəhim əmiyə
—Çox sağ ol,—dedi.
Rəhiməyə də
Çox sağ ol,—dedi.
Yüyürüb gəldi
Elçinlə Eldar,
Gəldi Ayaz da,
Gəldi Niyaz da.
Dünənki yeri
Gəzib tapdılar.
Gördülər hələ,
Burdadır şələ.
Ayrıldı dostlar;
Elçin:—Unutma,
Yenə gəl,—dedi.
Eldar kövrəldi,
«Ah» çəkdi Ayaz,
Tutuldu Niyaz.

* * *

Cəngi meşəsi...
Xəzəlli cığır...
Cırtdan yenə də
Yamaca qalxır.
Yaman tələsir,
Yaman darıxır.
Uçur quş kimi,
Fərəhindən o,
«Gördüklərimi
Nənəmə desəm
Deyər nağıldı.
Bilirəm nənəm
Yağlı kökə də
Verəcək mənə.
Yağlı kötək də
Vuracaq mənə.
Təki kökəni
Verəydi əvvəl».
Kəsə gedir ki,
Tez çatsın evə.
Dizinə qədər
Çıxıbdır xəzəl.
Sağa buruldu,
Yaşıl taladan:
Qorxmadı itdən
Qorxmadı divdən,
Qorxmadı qurddan
Sarı təpəni
Aşıb o yana

Yox oldu Cırtdan.

## ANA ƏLİ

***(Xalq əfsanəsi əsasında)***

I

Çağırtdırıb ərini,
Həsrətlə baxıb ona,
Əziz körpələrini,
Belə tapşırdı ana.
Dedi:—Ölürəm, ancaq,
Sinəmdə bir dünya qəm,
Çox nigaran ölürəm.
Uşaqlara yaxşı bax!
Qoyma onları ağlar,
Səndən başqa kimim var?
Unutma sözlərimi!
Sənin təzə arvadın,
Mənim əzizlərimi,
İncidəcəksə əgər,
Qəbrimə od tökülər.
Torpağım-daşım yanar,
Zülm ərşə dayanar.
Ana ürəyi—kövrək...
Bu dərdə dözə bilməz.
Odur ki, mən ölən tək,
Əlimin birini kəs,

Qurudub saxla evdə
Evin «təzə gəlin»i
Saxlamayıb əlini
Əgər döymək istəsə,
Ciyərparələrimi,
Qoy öz əlimlə döysün;
Ağrıyan ürəyimi,
Bir ana kimi duysun...
Günəşüzlü qızımın
Ayımın, ulduzumun
Könlünü al, atası!
Qaragözlü oğlumun
Şirinsözlü oğlumun
Qeydinə qal, atası!
Qoyma onları ağlar
Səndən başqa kimim var.
Mən ona yanıram ki,
Gözümdə gözübağlı,
Arzu qaldı, kam qaldı.
Mən ona yanıram ki,
Dünyada qəlbi dağlı,
İki nişanəm qaldı.
Mən ona yanıram ki,
Elə odlanıram ki,
Üşüyürəm istidən,
A canıma qəsd edən
Ölüm, a zalım ölüm!
Qoy bir az da yaşayım,
Bir az da qalım, ölüm.

Əlindən çəkirəm dad.
Özün də bu zülmü dad!
Gəlin, gəlin yanıma,
Yetim qalan balalar!
Gəlsin mənim canıma,
Sizə gələn bəlalar.
Yaşamadım doyunca
Toyunuzu görmədim.
Uzun illər boyunca.
Boyunuzu görmədim,
Ürəkdə dağ gedirəm
Yaman bivaxt gedirəm»

Ana onları bir-bir
Öpüb bərk-bərk ağladı.
Şişirtmək nəyə lazım,
Bir ana tək ağladı.
Gözləri yaşlı-yaşlı
Sırğalarını açdı,
Günəşüzlü qızının
Qulaqlarına taxdı.
Baxdı balalarına
Baxdı, doymadı, baxdı...

**II**

Axşam oldu qarışdı şər.
Ana yumdu gözlərini.
Bu dəm bütün evdəkilər,
İtirdilər özlərini.
Göz yaşları selə döndü,
Ahlar güclü yelə döndü,

Yanan qəlblər külə döndü
O yumanda gözlərini.
Axşamüstü, qürübçağı,
Buludların qaşqabağı,
Çəkdi yerə sinə dağı,
O yumanda gözlərini.

Bahar dönüb xəzan oldu.
Yarpaq düşdü, çiçək soldu.
Göylərin də gözü doldu,
O yumanda gözlərini.

Ölüm oldu yamanca pərt,
Öz-özünə dedi:«Namərd».
Dərdin özü də çəkdi dərd.
O yumanda gözlərini.

Günəş batdı yer soyudu,
Dərdli ana da uyudu.
Günəş batdı bir gecəlik,
Ana yatdı həmişəlik,
Günəş yerin anasıdır,
O həmişə yanasıdır.

III

Qəlbi yorulan ana,
Ümidi viran ana,
Bir əlli dəfn edildi.
Bu sirri bir məzarlıq,
Bir də ki, əri bildi.

Ananın qaxac əli;
Zərxaraya bükülü,

Qızıl mücrüdə qaldı.
Sandıqda bizlədildi,
Sandıq küncə qoyuldu,
Sandıq müqəddəs oldu.

### IV

Bir il qoca təbiət
Geyindi qara libas.
Bir il göylər ağladı
Buludlar saxladı yas.

Yetimlərin ahından
Dayandı axar sular.
Yetimlərin ahından
Əridi sərt qayalar,
Bir il gündə min kərə
Uşaqlar «ana» dedi.
Gözlər «ananı» gəzdi.
Dodaqlar «ana» dedi.
Bir il əzab, ah-zar...
Bir il təkcə qonşular
Bu evə həyan oldu
Ürəklər şan-şan oldu.
Bu ağrıya, bu dağa
Bir il dözüb, bir təhər...
Əlacsız qalan dul ər
Yağışlı bir havada—
Uşaqlara baxmağa
Təzə ana gətirdi—
Yana-yana gətirdi.

V

Ögey ana bircə ay,
Uşaqlara «can» dedi.
Ər də inanıb ona,
«Əsil anasan» dedi.
Kor olsun belə adət,
Başlandı eyş-işrət.
O müqəddəs ananı,
Unutdurdu «məhəbbət».
Vəsiyyət unuduldu.
Ananın qaxac əli,
Zərxaraya bükülü,
Qızıl mücrüdə qaldı.
Mücrü sandıqda qaldı
Sandıq bir küncdə qaldı.
Ögey ana qudurdu.
Evə vəlvələ saldı.
Altıyaşlı «qızı»na
Döşəməni yudurtdu.
Səkkizyaşlı «oğlu»nu
Şaxtalı qış günündə
Astanada oturtdu,
Odun gətirməyəndə,
«Əlim donur»—deyəndə.
Onları ac saxladı
Su verdi çay vermədi
Özü bişirib yedi
Onlara pay vermədi.
Danladı da, söydü də,
Saçladı da, döydü də.

### VI

Ər bunları görmədi,
O çəkməzdi bu dərdi.
O, dan üzü gedərdi,
Gün batanda gələrdi.
Soruşanda qızını,
Soruşanda oğlunu.
Arvadın şirin dili
Razı salardı onu.
Odur ki, xeyli müddət
Unuduldu vəsiyyət
Ananın qaxac əli;
Zərxaraya bükülü,
Qızıl mücrüdə qaldı.
Mücrü sandıqda qaldı.
Sandıq bir küncdə qaldı.
Ögey ana qudurdu,
Evə vəlvələ saldı.
Altıyaşlı uşağın,
Sırğasını da aldı.
Axşam söhbət düşəndə
Bir sübut da gətirib,
Dedi ki, filan vaxtı
Filan yerdə itirib.

### VII

Qayaları, dağları,
Əridərdi bu dağlar.
Get-gedə sısqalaşdı,
Arıqladı uşaqlar.

Bir gün oğlan da, qız da,
Birdən yatağa düşdü.
Analıq «ana» oldu,
Tez əl-ayağa düşdü.
Qorxub öz əməlindən,
Qopardı fəryad, şivən,
—«haray»—deyə bağırdı.
Ər evə gələn kimi,
O zamanın həkimi
Loğmanı da çağırdı.

Loğman ataya baxdı,
Loğman «anaya» baxdı.
Yetimlərnn gözündə
Donan mənaya baxdı.
Dedi ki, «birdən-birə
Bunlar azarlamazdı».
Bir «ah» da çəkib bu an,
Xəstələrinə dərman
«Ana əlini» yazdı.

Atanın kar ürəyi
Bu sədadan oyandı...
Ata, od tutub yandı
Dağlar uçdu elə bil
Üstünə hər tərəfdən.
Gözündəki pərdələr
Açıldı birər-birər.

Qorxu dolu baxışlar
Nifrət dolu baxışlar.
Qılınc təki, ox təki

Bir-bir qarşılaşdılar.
Onu lal düşüncələr
Apardı qəbiristana.
Yetim balalarını
Soruşdu bir-bir ana.
Ata utandı qaçdı...

VIII

Sandıq yadına düşdü,
Mücrü yadına düşdü.
Ananın qaxac əli
İmdadına yetişdi.
Hirslənmədi, çoşmadı,
Qorxdu ki, el qınaya.
Ananın arzusunu
Başa saldı «ana»ya.
«Əgər qalmaq istəsən,
Qal»—dedi.
«Amma qalmaq istəsən
Gəl bu əli al» dedi.
Analarına oxşa.
«Döyəndə bu əllə döy,
Oxşayanda oxşa!
Unutma ki, anasan,
Analıq deyil asan».

IX

Ananın qaxac əli;
Gün işığı görəli,
Yetimlər də gördülər...

Unuduldu dərdi-səri.
İndi ancaq gecələr
O əl mücrüdə qaldı,
Mücrü sandıqda qaldı.
Sandıq müqəddəs oldu.
Fərəhin qanadında
Uşaqlar yaşa doldu.

# KİTABIN İÇİNDƏKİLƏR

## ŞERLƏR


Bəs bu nədir?................................................5

Gilə … … … … … … … … … 6

Körpə . . . . . . . . . . . . . . . . . 7

Alma harda bitir? ................................8

Küsəyən qız ..........................................8

İynə ................................................9

Sevər ................................................11

Balaca işıqçı..........................................13

Tayqada neft .........................................14

Ay ......................................................19

Say .....................................................20

Dəcəl külək............................................21

Göydə nə var..........................................22

Sözün yeri ............................................24

Dörd söz … … … … … … … … … … … … . . 25

İki qorxaq … … … … … … … … … … … … . . 28

Çanaqlı bağa ill qurbağa........................ 28

Ağaçdələn …………………………………….29

Dələ.....................................................31

Bala kirpi...............................................32

Şəkilli kitabxana ...................................35


## POEMA VZ ƏFSANƏ


Cırtdan hara getmişdi?.......................................39

Ana əli ...................................................69

**KİÇİKYAŞLI UŞAQLAR ÜÇÜN**

Sadıqov Fikrət Abbas oğlu

**GÖYDƏ NƏ VAR....**

Redaktoru *Məmməd Namaz.*

Rəssamı *Y. Salnikov.*

Bədii redaktoru *V. Sarıçalinskaya.*

Texniki redaktoru *L. Abdullayeva.*

Korrektoru *A. Cəmilov.*

Yığılmağa verilmiş 6/XII-1977-ci il. Çapa imzalanmış 8/II-1978-ci il. Kağız formatı 60x 10, kağız №1. Fiziki ç/v. 2,5. Şərti ç/v. 2,5. Uçot nəşr. v. 2,74. FQ 07535. Sifariş № 4. Tirajı 7000. Qiymәti 15 qəp.

Azərbaycan SSR Nazirlər Sovetinin Dövlət Nəşriyyatı, Poliqrafiya və Kitab Ticarəti İşləri Komitəsi.
“Gənclik" nəşriyyatı, Bakı, Hüsü Hacıyev küçəsi, 4.
“Qızıl Şərq" mətbəəsi, Bakı, Həzi Aslanov küçəsi, 80,
Üz qabığı 26 Bakı komissarı adına mətbəədə çap edilmişdir.